“Ziraat Bank Azərbaycan” ASC-nin
İdarə Heyətinin 12.07.2024 tarixli
287 nömrəli Protokolu ilə təsdiq
edilmişdir

**BANK XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR ŞƏRTLƏR TOPLUSU**

**(HÜQUQİ ŞƏXSLƏR VƏ FƏRDİ SAHİBKARLAR ÜÇÜN)**

Bu Şərtlər Toplusu, şəraitdən irəli gələrək, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 30 dekabr 2014-cü il tarixdə, 255 sayla lisenziyaların mərkəzi reyestrinə daxil edilmiş, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən “Ziraat Bank Azərbaycan”ASC (bundan sonra mətn üzrə “Bank” da adlana bilər) tərəfindən fiziki şəxslərin (son istifadəçilər) müvafiq bank məhsulları və xidmətlərdən (bu Şərtlər Toplusunda göstərilmiş bank hesabı, bank əmanəti, ödəniş kartları, digər bank məhsul və xidmətləri) istifadə etmək niyyətlərini bildirdikləri və ya istifadə etdikləri halda onların Bankla münasibətlərini tənzimləyəcəkdir.

Siz, Bank tərəfindən təklif olunan məhsul və/və ya xidmətlərdən istifadə etmək məqsədilə müraciət etdiyiniz, habelə istifadə etməyə başladığınız və ya mövcud istifadəni davam etdirdiyiniz halda bu Şərtlər Toplusunun tələbləri ilə razılaşdığınızı qəbul və bəyan etmiş olursunuz. “Ziraat Bank Azərbaycan”ASC bu Şərtlər Toplusuna burada göstərilən qaydada əlavə və dəyişikliklər etmək hüququna malikdir. Bu Şərtlər Toplusu, habelə bütün digər əlavə və dəyişikliklərlə “Ziraat Bank Azərbaycan”ASC-nin Rəsmi İnternet Ünvanında (www.ziraatbank.az) tanış ola bilərsiniz.

Siz Bankın təklif etdiyi məhsul və ya xidmətlərdən istifadə etmək niyyətinizi bildirdikdə, bu Şərtlər Toplusunun müddəalarını qəbul etdiyinizi Banka bildirmək üçün Sizə təklif edilən Razılaşmanı (Bank xidmətlərinin göstərilməsinə dair Şərtlər Toplusuna Əlavə №1) imzalamaqla Banka təqdim etməlisiniz. Razılaşmanı imzalamaqla, Siz bəyan etmiş olursunuz ki, bu Şərtlər Toplusunu oxumusunuz, bütün müddəaları Sizin üçün aydındır və qəbul etdiyinizi təsdiq edirsiniz.

Bank tərəfindən bu Şərtlər Toplusuna əlavə və dəyişikliklər barədə məktub, yaxud SMS vasitəsilə son istifadəçilərə qeyd edilən əlavə və dəyişikliklərin tətbiq ediləcəyi tarixdən azı 30 (otuz) gün əvvəl bildirilir. Bu müddətdə son istifadəçi bu əlavə və dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə, bu əlavə və dəyişikliklər qəbul olunmuş hesab edilir və qüvvəyə minir. Bank əmanəti ilə bağlı münasibətlərdə isə əlavə və dəyişikliklər son istifadəçilərə bu barədə məlumat verildikdən sonra 11-ci (on birinci) təqvim günündən etibarən və ya həmin əlavə və dəyişikliklərlə bağlı xidmətdən istifadə etdiyi andan qüvvəyə minir. Valyuta mübadiləsi məzənnəsində edilən dəyişikliklər, həmçinin xidmət tariflərində edilən dəyişikliklər hər hansı xəbərdarlıq müddəti tətbiq edilmədən tətbiq edildiyi andan qüvvəyə minir.

Bu Şərtlər Toplusu, Razılaşma (Bank xidmətlərinin göstərilməsinə dair Şərtlər Toplusuna Əlavə №1) və Bank məhsul və xidmətlərinə dair bağlanacaq konkret razılaşmalarla (dispozitiv və mühüm şərtləri əks etdirən razılaşmalar) birlikdə müqavilə hesab edilir. Bank xidmətlərinin göstərilməsinə dair Şərtlər Toplusuna Əlavə №1, həmçinin Bank məhsul və xidmətlərinə dair bağlanacaq konkret razılaşmalar (dispozitiv və mühüm şərtləri əks etdirən razılaşmalar) və ona əlavə və dəyişikliklər şəxsən və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə rəsmiləşdirilə

bilər. Şərtlər Toplusuna Əlavə №1, həmçinin Bank məhsul və xidmətlərinə dair bağlanacaq konkret razılaşmalar (dispozitiv və mühüm şərtləri əks etdirən razılaşmalar) və ona əlavə və dəyişikliklərin bağlanması zamanı Bank mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən də istifadə edə bilər.
Bank məhsul və xidmətləriilə bağlı Bank hüquqi şəxslər və fərdi sahibkarlardan qanunvericiliklə qadağan olunmayan ərizə, anket və s. əlaqəli sənədlərin təqdim edilməsini tələb edə bilər.
Bank məhsul və xidmətlərinə dair bağlanacaq konkret razılaşmalarla (dispozitiv və mühüm şərtləri əks etdirən razılaşmalar) bu Şərtlər Toplusu arasında ziddiyyət olduğu təqdirdə, həmin konkret razılaşmalar (dispozitiv və mühüm şərtləri əks etdirən razılaşmalar) üstünlük təşkil edir.
Bu Şərtlər Toplusu qüvvəyə minməzdən əvvəl bank məhsul və xidmətlərinə dair bağlanmış müqavilələrə bu Şərtlər Toplusunda qeyd olunan qaydalar tətbiq edilir, habelə həmin müqavilələrdə bu Şərtlər Toplusu ilə ziddiyyət təşkil edən şərtlər olduqda, bu Şərtlər Toplusu üstünlük təşkil edir.
Son istifadəçi müqavilədə müvafiq məhsul və xidmətlər üzrə müəyyən edilmiş ləğv etmə (xitam vermə) halları və bank əmanət münasibətləri istisna olmaqla, 1 (ay) əvvəlcədən yazılı bildiriş verməklə haqq ödəmədən müqaviləni birtərəfli ləğv edə bilər. Müqavilə ləğv edilənədək son istifadəçi istifadə xidmətlərinə görə xidmət haqlarını ödəməlidir. Əgər xidmət haqları avans şəklində ödənilmişdirsə, həmin haqlar müqavilə ləğv edilənədək göstərilən ödəniş xidmətlərinə görə ödənilməli olan xidmət haqları çıxılmaqla son istifadəçiyə müqavilənin ləğv olunduğu günün növbəti iş günündən gec olmayaraq geri qaytarılır. Bank müqavilədə müvafiq məhsul və xidmətlər üzrə müəyyən edilmiş ləğv etmə (xitam vermə) halları və bank əmanət münasibətləri istisna olmaqla, qeyri-müəyyən müddətə bağlanmış müqaviləni son istifadəçini 30 (otuz) gün əvvəl məlumatlandıraraq ləğv edə bilər.

## BANK HESABI (CARİ HESAB)

1.1. Bu Müqaviləyə əsasən Bank Müştəriyə bank hesabı (bundan sonra "Hesab" adlanacaq) açır, açılmış hesaba pul vəsaitini qəbul edir və hesaba mədaxil edir, habelə hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair Müştərinin sərəncamlarını yerinə yetirir.

**2. Hesabda olan pul vəsaitinə dair sərəncam verilməsi**

2.1. Bank Müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə Müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bu Müqavilə ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz. Qanunda nəzərdə tutulan hallarda məhkəmənin qərarı ilə hesabdakı pul vəsaiti üzərinə həbs qoyulduğu və ya hesab əməliyyatlarının dayandırıldığı, habelə «Daşınar əmlakın yüklülüyü haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna təşkil edir.
2.2. Bank Müştərinin sərəncamı əsasında hesabdan pul vəsaitini silir.
2.3. Müştərinin Bank qarşısında öhdəlikləri yarandıqda və ya müvafiq məhkəmə qərarı olduqda, habelə qanunvericiliklə müəyyən edilmiş digər hallarda Müştərinin sərəncamı olmadan onun hesabındakı pul vəsaiti Bank tərəfindən silinə bilər. Əgər pul vəsaiti Müştərinin xarici valyutada olan hesabından silinirsə, konvertasiya Bankın müvafiq tariflərinə əsasən həyata keçirilir və müvafiq komissiya haqqı tutulmaqla Müştərinin hesabından pul vəsaiti akseptsiz qaydada silinir.

2.4. İmza və möhür nümunələri vərəqəsində birinci və/və ya ikinci imzaya malik iki və ya daha çox şəxsin imzası qeyd olunduqda, həmin imzaların istifadəsi qaydası Müştərinin istəyi ilə müəyyən edilir və bu barədə imza və möhür nümunələri vərəqəsində müvafiq qeyd aparılır.

**3. Hesablaşma qaydası**

3.1. Bank Müştərinin hesabına daxil olmuş pul vəsaitini həmin əməliyyat günündən gec olmayaraq hesaba mədaxil edir. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi növbəti əməliyyat günü həyata keçirilir. Bank ödəniş xidmətlərini ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın hesabına köçürülür.
3.2. Müştərinin sərəncamı əsasında Bank pul vəsaitini müvafiq ödəniş sərəncamının Banka daxil olduğu gündən 3 (üç) iş günü ərzində verir və ya hesabdan köçürür.
3.3. Müştərinin hesabındakı pul vəsaitindən istifadəyə görə Bank faiz ödəmir.
3.4. Müştəri hesabın açılması, həmçinin hesabdakı pul vəsaiti ilə əməliyyatların aparılması üzrə bank xidmətlərinin haqqını Bankın tariflərinə uyğun olaraq ödəyir. Bank xidmətinin haqqı hər əməliyyat başa çatdıqdan sonra Müştərinin hesabındakı pul vəsaitindən tutulur.
3.5. Xidmət tarifləri Bankın https://www.ziraatbank.az internet ünvanında yerləşdirilmişdir və Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər.
3.6. Nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkasso üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunla, bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir. Müqavilə üzrə tərəflərin hesablaşma formalarının birindən istifadə edilməsi tərəflər arasında əlavə bağlanmış müqaviləyə müvafiq olaraq müəyyən edilə bilər.
3.7. Ödəniş sərancamının geri götürülməsi ödəniş sisteminin qaydaları nəzərə alınmaqla müəyyən edilir.
3.8. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən hallarda bank hesabı üzrə əməliyyatların dayandırılması və bank hesabındakı vəsaitlərin dondurulması həyata keçirilir.

**4. Tərəflərin hüquq və vəzifələri**
**4.1. Bankın hüquqları:**

4.1.1. Müqavilənin rəsmiləşdirilməsi üçün tələb olunan sənədlərin təqdim edilməsini Müştəridən tələb etmək;
4.1.2. Qeyri-sağlam xarakterli əməliyyatlardan, habelə əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar olduqda Müştərinin sərəncamları əsasında əməliyyatları icra edərkən əlavə sənədlərin təqdim olunmasını Müştəridən tələb etmək;
4.1.3. Müştərinin, benefisiarın (pul alanın) və ya həyata keçirilən əməliyyatın qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın leqallaşdırılması, o cümlədən əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan şübhələr mövcud olduqda əməliyyatları dayandırmaq və bu Müqaviləyə birtərəfli qaydada xitam vermək;

4.1.4. Bank xidmətlərinin haqqını əməliyyat həyata keçirildikdən sonra Müştərinin hesabındakı pul vəsaitindən tutmaq və ya hesabda kifayət qədər vəsait olmadıqda xidmət haqqının nağd şəkildə ödənilməsini tələb etmək;
4.1.5. Bu Müqavilənin predmetinə aid olmayan əməliyyatların həyata keçirilməsi üçün əlavə müqavilə bağlanmasını tələb etmək;
4.1.6. Müştəri tərəfindən hesablaşma sənədlərinin hazırlanması və təqdim edilməsi ilə əlaqədar qanunvericiliyin tələblərinin pozulması faktını aşkarladıqda, hesablaşma-kassa əməliyyatlarının həyata keçirilməsindən imtina etmək;
4.1.7. Müqaviləyə qanunvericiliklə müəyyən edilmiş qaydada xitam vermək;
4.1.8. Qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4.2. Bankın vəzifələri:**

4.2.1. Hesabda olan pul vəsaitinə dair Müştərinin maneəsiz sərəncam vermək hüququnu təmin etmək;
4.2.2. Müştərinin sərəncamı əsasında hesabdan pul vəsaitini silmək;
4.2.3. Müştərinin tələbi əsasında onun hesabı üzrə aparılmış əməliyyatlar barədə hesabdan çıxarış və arayış vermək (şəxsən, poçt, elektron poçt və digər vasitələrlə);
4.2.4. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri icra etmək.

**4.3. Müştərinin hüquqları:**

4.3.1. Hesabdakı pul vəsaitinə dair sərəncam, həmçinin dövri ödənişlərin aparılması barədə ödəniş tapşırığı vermək və icrasını tələb etmək;
4.3.2. Hesabın vəziyyəti, habelə hesaba yönəldilən tələblər barədə Bankdan məlumat almaq;
4.3.3. Öhdəliklərinin icrasından sonra həmin öhdəliklərin icrasına dair Bankdan məlumat almaq;
4.3.4. Hesabda olan pul vəsaitini qanunvericiliyə müvafiq olaraq fiziki və / və ya hüquqi şəxsə vəsiyyət etmək;
4.3.5. Hesabda olan pul vəsaiti üzrə sərəncam vermək hüququnu digər şəxsə həvalə edərək ona etibarnamə vermək;
4.3.6. Qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4.4. Müştərinin vəzifələri:**

4.4.1. Banka təqdim edilən sənədlərdə, habelə məlumatlarda dəyişiklik baş verdikdə, o cümlədən poçt ünvanı və digər rekvizitlərin dəyişilməsi barədə dəyişiklik baş verdiyi gündən 10 (on) gündən gec olmayaraq yazılı surətdə Bankı məlumatlandırmaq;
4.4.2. Hesab üzrə aparılacaq əməliyyatlar barədə sərəncamlarına qanunvericiliyə uyğun yazılı şəkildə təminat vermək, o cümlədən Bankın tələbi ilə bu barədə müvafiq sənədləri təqdim etmək;
4.4.3. Hesab üzrə sərəncam vermək üçün başqa şəxsə verdiyi etibarnaməni notarial qaydada təsdiq etmək;
4.4.4. Bank xidmətlərinin haqqını, o cümlədən Müştərinin hesabı üzrə çıxarış və arayışların göndərilməsi xərclərini Bankın tariflərinə müvafiq olaraq ödəmək;
4.4.5. Büdcə və büdcədənkənar fondlar qarşısında yerinə yetirilməmiş öhdəliklərinin olduğu halda hesabda həmin öhdəliklərin ödənilməsi üçün pul vəsaiti saxlamaq;
4.4.6. Hesab üzrə aparılmış səhv əməliyyatlar haqqında təxirə salınmadan əməliyyat aparıldığı tarixdən 3 (üç) iş günündən gec olmayaraq Banka məlumat vermək;
4.4.7. Bank tərəfindən tələb olunan əlavə məlumatları və sənədləri təqdim etmək;
4.4.8. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri icra etmək.

## 5. Əlavə şərtlər

5.1. Müştəri ərizə ilə Banka müraciət edərək Müqaviləni istənilən vaxt ləğv edə bilər.
5.2. Bank Müqaviləyə aşağıdakı hallarda birtərəfli qaydada xitam verə bilər:
5.2.1. Müştərinin hesabında saxlanan pul vəsaitinin məbləği Bank tərəfindən müəyyən edilmiş minimum miqdardan az olduqda;
5.2.2. Bir il müddətində Müştərinin hesabı üzrə əməliyyatlar aparılmadıqda;
5.2.3. Müştərinin hesabdan qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edildikdə.
5.3. Müqavilə ləğv edilərkən Müştərinin hesabı bağlanılır. Hesabdakı pul vəsaitinin qalığı 3 (üç) iş günü müddətində Müştəriyə verilir və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 7 (yeddi) gün keçənədək başqa hesaba köçürülür.
5.4. Hesabın qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olan yeni hesab Banka bildirilmədikdə, həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür və müştəriyə bu barədə yazılı (elektron və ya kağız daşıyıcıda) məlumat verilir.
5.5. Hesabın bağlanması nəticəsində pul vəsaitinin qalığının hüquqi rejimi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.
5.6. Bank Müştəri ilə aparılan danışıqların elektron və digər daşıyıcılar üzərində səs və video yazılarının qeydiyyatını aparmaq və onlardan sübut kimi istifadə etmək hüququna malikdir və Müştəri əvvəlcədən buna razılıq verir.
5.7. Bankın, Müştərinin Bank qarşısında yaranmış öhdəliklərinin təminatı qismində çıxış edən daşınar və daşınmaz əmlakların sığortası üzrə sığorta haqlarının akseptsiz qaydada Müştərinin hesabından silmək hüququ vardır.

## 6. Tərəflərin məsuliyyəti

6.1. Bank Müştəri tərəfindən qoyulan pul vəsaitinin qanunsuz yollarla əldə edilməsi və ya Müştəri tərəfindən məlumatın düzgün göstərilməməsinə görə məsuliyyət daşımır.
6.2. Müqavilənin bağlanmasından Bank əsassız boyun qaçırdıqda Müştərinin onu Müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət edə bilər. Bank Müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.
6.3. Bank Müştəri köçürmələrinin icrasında iştirak edən kredit (maliyyə) təşkilatının köçürməni icra etməməsi, köçürmənin icrasını gecikdirməsi və ya digər səbəbdən köçürmə məbləğini dondurması halında Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

## 7. Əmanətlərin Sığortalanması Fondu, Bank və Müştəri

7.1. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya həmin qanunda nəzərdə tutulmuş məbləğdə ödənilir. Əmanətlərin sığortalanması ilə bağlı müddəalar aşağıdadır:

- Bank 15.05.2015-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – Fond) iştirakçısı olaraq (45 nömrəli Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).
- Bank tərəfindən Əmanətçidən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər qanunvericiliklə müəyyən edilmiş qaydada Fond tərəfindən sığortalanır.
- Sığorta hadisəsi – Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Əmanətçi qarşısında əmanət üzrə öhdəliklərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium

tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Əmanətçi qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının maliyyə bazarlarına nəzarət orqanı tərəfindən təsdiq edilməsidir.

• Sığorta hadisəsi baş verdikdə, Fond aşağıda qeyd olunan media subyektlərində Əmanətçiyə kompensasiya ödənilməsinin yeri və vaxtı haqqında elan verir:

a) AzTV;
b) İctimai TV;
c) Azərbaycan qəzeti;
d) Respublika qəzeti;
e) Xalq qəzeti;
f) AzərTAc informasiya agentliyi;
g) APA informasiya agentliyi.

• Fonddan kompensasiya almaq üçün Əmanətçi mediada göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd;
b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənəd;
c) Bank əmanəti müqaviləsi;

• Ərizəni verildiyi tarixdən etibarən 30 (otuz) gün müddətində Fond tərəfindən Əmanətçiyə kompensasiya ödənilməlidir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq 1 (bir) il ərzində qəbul edir. Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında bildirişi ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

• Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;
b) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
d) üzərinə həbs qoyulmuş əmanətlər;
e) cəlb edildiyi günə milli valyuta ilə 12 ( on iki ) faizdən, xarici valyuta ilə 2,5 ( iki tam onda beş) faizdən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;
f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;
g) fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

• Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Əmanətçiyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çapraz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Əmanətçiyə ödəyir, bu şərtlə ki, kompensasiya qanunvericiliklə müəyyən edilmiş məbləğdən artıq olmasın.

• Əmanətçinin bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda, Fond həmin əmanətləri toplayır və bir əmanət kimi manatla kompensasiya edir. Əmanətçinin Fondun hər

hansı digər iştirakçı bankında olan əmanətinə isə ayrıca əmanət kimi baxılır və kompensasiya ödənilir.

- Bank Əmanətçinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Əmanətçiyə məlumat verir.
- Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 ; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 596 65 93; Faks: (99412) 596 65 94; qaynar xətt:941; e-mail: adif@adif.az; sayt: www.adif.az.

8.9. Maliyyə xidmətləri istehlakçıları həmin xidmətləri istehlak edərkən qarşılaşdığı çətinliklər və suallarla əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Bankının +994124935058 telefon nömrəsinə və +99412966 qaynar xəttinə müraciət edə bilərlər.

## KORPORATİV MÜŞTƏRİLƏR ÜÇÜN İNTERNET VƏ MOBİL BANKÇILIQ XİDMƏTİ

### 3.1. Korporativ müştərilər üçün internet və mobil bankçılıq xidməti üzrə maddələr/müddəalar

3.1.1. Predmet və digər şərtlər.

3.1.2. Bu Müqaviləyə görə Bank Tariflərə uyğun olaraq Müştəriyə qeyri-məhdud bank xidmət kanalları vasitəsilə Müştərinin bank hesab(lar)ı üzrə İnternet və Mobil Bankçılıq xidmətini təqdim edir.

**3.1.3. Müqavilədə istifadə edilən terminlər**

**"İnternet bankçılıq" xidməti:** İnternet vasitəsilə (kompüter, mobil telefon vasitəsilə təqdim olunan və ya təqdim ediləcək, lakin bunlarla məhdudlaşmayan) bank hesab(lar)ı üzrə Bankın hazırda və gələcəkdə təqdim edəcəyi xidmətlər;

**"Qeyri-məhdud bank xidmət kanalları":** Bankın filial və şöbələri xaricində qalan, Müştəriyə xidmətlərini çatdırdığı internet, mobil cihazlar, ATM, və s kimi kanallar;

**"Müraciət forması":** İnternet və Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün Müştəri tərəfindən müvafiq məlumatların Banka təqdim edildiyi və bu Müqavilənin ayrılmaz hissəsi olan ərizə forması. Müraciət Forması Müqaviləyə Əlavə olunur (Əlavə 1) və onun tərkib hissəsini təşkil edir;

**"Sistem istifadəçisi":** Müştəri adından İnternet və Mobil Bankçılıq vasitəsilə əməliyyatları aparacaq və İnternet və Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün Müraciət Formasında müvafiq məlumatları əks olunan səlahiyyətli şəxs(lər);

**"Mono"** – Bank sistemində Müştəriyə məxsus unikal identifikasiya nömrəsi;

**"Səlahiyyətli şəxs":** İnternet və Mobil Bankçılıq xidmətindən Müştəri ilə yanaşı onun verdiyi Etibarnamə əsasında istifadə edəcək şəxs(lər);

**"Təhlükəsizlik vasitələri": İnternet və** Mobil Bankçılıq xidmətindən istifadə edən Müştərinin İnternetdə Bank fəaliyyətinin təhlükəsizliyi üçün yararlandığı MONO, Şifrə və Birdəfəlik şifrə.

**"Əlavə təhlükəsizlik vasitələri":** Müştərinin seçimi əsasında onun İnternet və Mobil Bankçılıq xidmətlərindən istifadə zamanı təhlükəsizliyini təmin etmək üçün Bank tərəfindən təmin edilən vasitələr.

**"Ağıllı açar":** İnternet və Mobil Bankçılıq xidmətindən yararlanarkən Müştəriyə iki mərhələli təhlükəsizliyi təmin edən və birdəfəlik istifadə üçün nəzərdə tutulan rəqəmlərdən ibarət bir şifrə yaradan Açara bənzər fiziki təchizat;

**"Birdəfəlik sms":** İnternet və Mobil Bankçılıq xidmətindən yararlanarkən Müştərinin adına qeyd edilmiş və Müştəri tərəfindən Banka bildirilmiş və Bank sistemində qeydiyyata alınan mobil

telefon nömrəsinə göndərilən birdəfəlik istifadə üçün nəzərdə tutulan rəqəmlərdən ibarət şifrə ilə təsdiqləməni təmin edən sistem və bu sistemin funksiyasını təmin edən Müştəri üçün hazırlanmış proqram təminatı;
**“Tariflər”:** Bu Müqaviləyə uyğun təyin olunan İnternet və Mobil Bankçılıq xidmət haqqı;
**“Şifrə”:** Bankın İnternet, Mobil və ya elektron qaydada keçirilən əməliyyatlar üçün, Müştəriyə gizli saxlanmaq şərtilə verdiyi istifadə kodları və ya Müştərinin Bankdan aldığı bu şifrə ilə təqdim edilən xidmətlərdən faydalanaraq elektron mühitdə öz-özünə ala biləcəyi/çıxara biləcəyi və ya Bankdan tələb edə biləcəyi gizli saxlanmalı olan kod;
**“Birdəfəlik şifrə”:** İnternet və Mobil Bankçılıq xidmətindən istifadə zamanı Müştərinin təhlükəsizliyini təmin etmək məqsədilə Bank tərəfindən “Ağıllı Açar” və “Birdəfəlik SMS” təhlükəsizlik vasitələrilə yaradılan və birdəfəlik istifadə üçün nəzərdə tutulan əlavə identifikasiya kodu;
**“Asan imza”:** ASAN Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilmiş elektron imza üçün sertifikat əsasında eyniləşdirilən Müştərinin malik olduğu elektron imza. Asan İmza Müştərinin şəxsi imzasının analoqu olmaqla İnternet və Mobil Bankçılıq Xidmətindən istifadə edərkən Müştərini eyniləşdirməyə imkan verir və Asan İmza ilə təsdiqlənmiş elektron ödəniş tapşırığı, elektron sifariş və digər elektron sənəd Müştəri tərəfindən kağız üzərindən yazılı formada şəxsən əl ilə imzaladığı sənəd ilə eyni hüquqi qüvvəyə malikdir.
**“Qr-Kod (İngiliscə Quick response – Çevik cavab)” –** iki ölçülü ştrixkoddur. Bu ştrixkod daxilində simvollardan (rəqəm və xüsusi simvollar) ibarət olan müxtəlif məlumat şifrələnir.
**“Ziraat global mobil ödəmə tətbiqi” –** Müştərinin Bankda olan cari hesabları vasitəsi ilə QR-koddan istifadə etməklə eyni valyutalı cari hesablararası köçürmələr, ödəniş, nağd vəsaitin məxarici əməliyyatlarını icra edə bildiyi mobil aplikasiya.
**“Ziraat Mobil Tətbiqi”** – Bankın İnternet Bankçılıq xidməti üzərindən təklif etdiyi xidmətlərin mobil telefonlarda istifadə oluna bilən mobil tətbiq vasitəsi ilə Müştəriyə təqdim edilməsidir.

### 3.2. Ümumi müddəalar

3.2.1. İnternet və Mobil Bankçılıq xidmətinə qoşulmaqla bağlı Müştəriyə Şirkət MONO-su, İstifadəçi MONO-su, Şifrə və Birdəfəlik şifrə əldə edilməsi üçün əlavə təhlükəsizlik vasitəsi verilir.
3.2.2. Bu Müqavilə üçüncü şəxslərin xeyrinə bağlana bilməz. Bu Müqavilə ilə Müştəriyə məxsus hüquqlar üçüncü şəxslərə ötürülə bilməz.
3.2.3. Tərəflər İnternet və Mobil Bankçılıq xidməti çərçivəsində təqdim olunan xidmətlər, təhlükəsizlik vasitələri və həyata keçiriləcək əməliyyatlar üzrə aşağıdakı kimi razılığa gəlirlər:
3.2.3.1. Müştəri tərəfindən Banka təqdim olunan Elektron sənədlər imzalanmış sənədlərlə bərabər hüquqi qüvvəyə malik olacaq;
3.2.3.2. Müştəri İnternet və Mobil Bankçılıq xidməti çərçivəsində təqdim olunan xidmətlər, təhlükəsizlik vasitələri və həyata keçiriləcək əməliyyatlar Bank tərəfindən internet vasitəsilə və ya elektron formada təqdim olunması səbəbindən onları etibarsız hesab etməyəcəyini bəyan və qəbul edir;
3.2.3.3. İnternet və Mobil Bankçılıq xidməti çərçivəsində təqdim olunan xidmətlər, təhlükəsizlik vasitələri və həyata keçiriləcək əməliyyatlar məhkəmədə, dövlət, ictimai və özəl qurumlarda sübut kimi istifadə edilə bilər;
3.2.3.4. Müştəri bu Müqavilənin icrası məqsədilə Bank tərəfindən Müştərinin şəxsi məlumatlarını saxlamaq və emal etmək hüququnu, yəni həmin məlumatların toplanması, saxlanması, emalı, istifadəsi, paylanması, bloklaşdırılması, məhv edilməsi və ya İnternet və Mobil Bankçılıq xidməti

çərçivəsində qanunvericiliklə müəyyən edilmiş qaydada üçüncü şəxslərə ötürülməsi üzrə hüququnu qəbul və bəyan edir;
3.2.3.5. Daimi məlumat saxlayıcısı vasitəsilə mühafizə edilən Müqavilə və əlaqədar sənədlərin Müştəriyə göndərilmiş formatları mötəbər sübutlar hesab olunur. Müqavilə çərçivəsində elektron bankçılıq kanallarından Banka verilən hər cür tapşırıqlar tapşırıq vermə prosedurunun yerinə yetirildiyi anında Müştəri üçün məcburi olur;
3.2.3.6. Müştəri, bu Müqavilə çərçivəsində Bank tərəfindən göstərilən xidmətlərdən istifadə hüququnun istisnasız olaraq özünə aid olduğunu, şifrənin/şifrələrin və/və ya istifadəçi adının və ya digər təhlükəsizlik vasitələrinin gizli qalması üçün lazımi səy və diqqəti göstərəcəyini, bu şifrəni/şifrələri və/və ya istifadəçi adını heç bir halda üçüncü şəxsə açıqlamayacağını və bu şifrənin heç bir üçüncü şəxs tərəfindən istifadəsinə icazə verməyəcəyini, şifrənin/şifrələrin və/və ya istifadəçi adının və ya digər təhlükəsizlik vasitələrinin hər hansı bir üçüncü şəxs tərəfindən istifadəsinin nəticələrinə görə tamamilə özünün cavabdehlik daşıdığını qəbul edir. Əsas İstifadəçi/Müştəri müraciətinə cavab olaraq müxtəlif səlahiyyətlərə malik şifrələrin ona göndərildiyi təqdirdə də, yuxarıda qeyd edilən şərtlər qüvvədə qalmaqla bu şifrələrin və/və ya istifadəçi adının və digər təhlükəsizlik vasitələrinin üçüncü şəxslər tərəfindən istifadəsinə və bunun nəticələrinə görə özünün cavabdehlik daşıdığını, Bankın şifrələrdən istifadə etməklə əməliyyat aparan şəxslərin şəxsiyyətlərinin araşdırma öhdəliyinin olmadığını və şifrələrin dəyişdirilməsi ilə bağlı Banka yazılı tapşırıq vermədiyi müddətdə bu şifrələrdən istifadə olunmaqla aparılan əməliyyatların özü üçün məcburi olduğunu qəbul edir, bildirir və öhdəsinə götürür;
3.2.3.7. Müştəri, Bank tərəfindən verilən şifrənin və/və ya istifadəçi adının və ya digər təhlükəsizlik vasitələrinin istənilən formada əldən çıxması (itirilmə, oğurlanma, zorla alınma və s.) hallarında bu barədə Banka dərhal məlumat verməklə kifayətlənməməli, vəziyyəti yazılı şəkildə də təsdiqləməlidir, eyni zamanda Bankın şifrənin və/və ya istifadəçi adının və ya digər təhlükəsizlik vasitələrinin ləğvi prosedurunu yerinə yetirdiyi vaxtadək məsuliyyətin özünə aid olacağını qəbul edir;
3.2.3.8. Müştəri, Bankın təqdim etdiyi xidmətlərdən maksimum dərəcədə təhlükəsiz şəraitdə faydalana bilməsi üçün elektron bankçılıq prosedurlarında, istifadə edəcəyi şəxsə aid xüsusi cihazlarda (kompüter, telefon və s.), lazımi avadanlıqlarda proqram təminatının (firewall, anti virus proqramları, internet qoruma proqramları və s. kimi minimum aktual proqramların) olmasının təmin edilməsi və yenilənməsinə görə məsuliyyət daşıyır.

**3.3. İnternet və mobil bankçılıq xidmətinə qoşulma və istifadə**

3.3.1. Müştəri Banka müraciət edərək İnternet və Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün bu Müqavilənin ayrılmaz tərkib hissəsi olan Müraciət Formasını doldueraraq imzalayır və Banka təqdim edir.
3.3.2. Müraciət Formasını doldurarkən, Müştəri özünün qeyd etməli olduğu bütün məlumatları tam və düzgün şəkildə Banka təqdim edir.
3.3.3. İnternet və Mobil Bankçılıq xidmətinə qoşulan zaman Müştərinin Bankda olan bütün bank hesab(lar)ı avtomatik qaydada xidmətə əlavə olunur.
3.3.4. Müştəri, Bankın İnternet və Mobil Bankçılıq xidmətindən Bank sisteminə daxil olaraq "Sistem İstifadəçisi" və ya "Səlahiyyətli Şəxs" vasitəsilə istifadə edir.
3.3.5. Müştəri, İnternet və Mobil Bankçılıq xidmətinə daxil olmaq üçün internet vasitəsilə Bankın rəsmi internet saytı olan www.online.ziraatbank.az və ya www.ziraatbank.az saytında yerləşdirilmiş müvafiq linkə daxil olur, yaxud mobil telefonlar vasitəsilə play store və ya app store-dan Ziraat Mobil Tətbiqini yükləyir, ona məxsus Şirkət MONO-sunu, İstifadəçi MONO-sunu, Asan

İmzanı, Şifrəni,Birdəfəlik şifrəni və ya Bankın tələb etdiyi digər eyniləşdirmə məlumatlarını daxil edib birbaşa Bankın sisteminə daxil olur.

3.3.6. Müştəri İnternet və Mobil Bankçılıq xidməti vasitəsilə əməliyyat aparacaq maksimum iki Sistem İstifadəçisini təyin edir. Sistem İstifadəçisini təyin edərkən Müştəri onlara veriləcək səlahiyyətləri Müraciət Formasında müəyyən edir.

3.3.7. Bankın Müştəriyə internet və/və ya elektron sistemlər vasitəsilə xidmət göstərməsi Müştəriyə cihaz və proqram (hardware-software) təminatı ilə əlaqədar Banka öhdəlik yaratmır.

3.3.8. İnternet və Mobil Bankçılıq xidməti Müştəriyə məxsus bank hesab(lar)ının etibarlılıq müddəti çərçivəsində təmin olunur.

3.3.9. Müştəri, İnternet və Mobil Bankçılıq xidməti üzrə dəyişikliklər edilməsi məqsədilə yeni bir Müraciət Forması ilə Banka müraciət edir. Əks təqdirdə, mövcud İnternet və Mobil Bankçılıq xidməti onun üçün qüvvədə qalır və bütün nəticəsi ilə davam edir.

3.3.10. Müştəri İnternet və Mobil Bankçılıq xidmətinin qoşulduğu və Bankın sistemində qeydiyyata alınan mobil telefon nömrəsini dəyişdirdiyi halda həmin gün Banka yazılı məlumat verməlidir. Belə məlumatın verilmədiyi halda yarana biləcək neqativ hallar üçün Bank məsuliyyət daşımır.

3.3.11. Müştərinin ölkə xaricində İnternet və Mobil Bankçılıq xidmətinə qoşula bilməsi üçün, birdəfəlik şifrələrin göndərildiyi mobil nömrənin rouminq xidməti aktiv olmalıdır. Rouminq xidməti zamanı yarana biləcək problemlərə görə Bank məsuliyyət daşımır.

3.3.12. Müştəri İnternet və Mobil Bankçılıq xidmətinə bağlı bütün hesablarına görə bu Müqavilə çərçivəsində eyni dərəcədə məsuliyyət daşıyır.

3.3.13. Bankın iş saatları xaricində verilmiş Müştəri ödəniş tapşırıqları və valyuta alqı-satqı əməliyyatları ilə bağlı müraciətləri Bank tərəfindən növbəti iş günündə, digər sorğular isə onlayn olaraq icra olunmaq üçün dəyərləndirilir.

3.3.14. Müştərinin internet və/və ya elektron sistemlər vasitəsilə təqdim olunan xidmətlərlə əlaqədar apardığı xarici valyuta əməliyyatlarının AZN-ə çevrilməsində və ya AZN-dən xarici valyutaya çevrilməsində Bankın müəyyənləşdirdiyi valyuta mübadiləsi üzrə xidmət haqqı tətbiq oluna bilər.

**3.4. Əlavə təhlükəsizlik vasitələrindən istifadə qaydaları**

3.4.1. **Ağıllı Açar.** Hər bir "Ağıllı Açar" Müştəri üçün xüsusi yaradılır və birdəfəlik istifadə üçün rəqəmlərdən ibarət şifrələr təmin edir. Bir dəfə istifadə üçün yaradılan şifrə, ikinci dəfə həmin Müştəri və ya başqa bir Müştəri tərəfindən istifadə edilə bilməz. Bu Müqavilə üzrə hər bir Ağıllı Açar Bankın Tariflərinə əsasən ödənişli olaraq verilir. Ağıllı Açarın istifadəsini dayandırmaq üçün cihaz Banka geri qaytarılmalıdır. Müştəri, lazımi şəkildə işləməyən, nasaz və/və ya sıradan çıxmış Ağıllı Açarlar haqqında dərhal Banka məlumat verərək onları ləğv etdirmək öhdəliyini daşıyır. İtirilmiş və ya nasaz hala gətirilmiş Ağıllı Açar əvəzinə yenisini alarkən Bankın Tariflərinə uyğun olaraq Müştəri tərəfindən Banka haqq ödənilir. Lazımi şəkildə işləməyən və ya nasaz Ağıllı Açar səbəbindən ümumiyyətlə və ya lazımi şəkildə aparıla bilməyən əməliyyatlar üzrə Bank məsuliyyət daşımır.

3.4.2. **Birdəfəlik Sms.** Birdəfəlik Sms Müştərinin Banka bildirdiyi mobil nömrəsinə şifrə göndərilməklə aktivləşir. Hər bir Birdəfəlik Sms şifrəsi Müştəri üçün xüsusi yaradılır və birdəfəlik istifadə üçün rəqəmlərdən ibarət şifrələr təmin edir. Birdəfəlik istifadə üçün yaradılan şifrə ikinci dəfə həmin Müştəri və ya başqa bir Müştəri tərəfindən istifadə edilə bilməz.

3.4.3. Müştəri Bankın rəsmi internet saytı olan www.online.ziraatbank.az və ya www.ziraatbank.az saytlarında yerləşdirilmiş internet və mobil bank xidmətləri üzrə təhlükəsizlik

qaydaları ilə yaxından tanış olmağını və onlara riayət edilməsini öncədən qəbul, bəyan və təsdiq edir.

**3.5. İnternet və mobil bankçılıq xidməti vasitəsilə aparılan əməliyyatlar**

3.5.1. Müştəri İnternet və Mobil Bankçılıq xidməti vasitəsilə bank hesab(lar)ına nəzarət edilməsi, valyuta mübadiləsi əməliyyatının həyata keçirilməsi, hesabdan çıxarışların alınması, hesabın qalığının öyrənilməsi, ölkədaxili və ölkəxarici pul köçürmələrinin aparılması, kredit reyestrindəki (bürosundakı) məlumatlarının alınması və bank hesabları arasında köçürmələrin aparılması və s. kimi əməliyyatlar apara bilər.
3.5.2. Müştəri İnternet və Mobil Bankçılıq xidməti vasitəsilə aparılan əməliyyatların məbləğinin hesabından silinəcəyini qəbul edir.

**3.6.Bankın hüquqları və vəzifələri:**

3.6.1. **Bank aşağıdakı hüquqlara malikdir:**
3.6.1.1. Müştəri tərəfindən Banka təqdim edilən Müraciət Forması və digər sənədlər üzrə məlumatların düzgünlüyünü və tamlığını yoxlamaq;
3.6.1.2. Müştərini əvvəlcədən məlumatlandırmaqla İnternet və Mobil Bankçılıq xidmətindən istifadə imkanını məhdudlaşdırmaq;
3.6.1.3. Müştəri bu Müqaviləyə və/və ya Azərbaycan Respublikasının qanunlarına zidd olan əməliyyatları həyata keçirdiyi hallarda, habelə Müştərinin hesab(lar)ında bu Müqaviləyə uyğun xidmət haqlarını ödəmək üçün kifayət qədər vəsait olmadıqda İnternet və Mobil Bankçılıq xidmətlərinin təmin edilməsini dayandırmaq və ya ləğv etmək;
3.6.1.4. Bankın https://www.ziraatbank.az internet ünvanında yerləşdirilmiş Tariflərinə dəyişikliklər etmək;
3.6.1.5. Ağıllı Açar, Asan Imza, Birdəfəlik Sms və digər əlavə təhlükəsizlik vasitələrindən istifadə edərək həyata keçirilən xidmətləri birtərəfli olaraq müəyyənləşdirmək, istifadə şərtlərini hazırlamaq və dəyişdirmək, istifadələri əməliyyat əsaslı əlavə şərtlərə təhkim etmək;
3.6.1.6. Müştəriyə verdiyi hesaba giriş vasitələrini təhlükəsizlik səbəbilə birtərəfli olaraq hər zaman dəyişdirmək, qismən və ya tam olaraq istifadəyə bağlamaq.

**3.6.2 Bank aşağıdakıları öz öhdəsinə götürür:**

3.6.2.1. Müştərinin Müraciət Forması əsasında İnternet və Mobil Bankçılıq sistemində mobil telefon nömrəsini qeydiyyatdan keçirmək, mobil telefon nömrəsi üzrə qeydiyyat məlumatlarını dəyişdirmək və qeydiyyat məlumatlarına xitam vermək.

**3.7. Müştərinin hüquq və vəzifələri**
3.7.1. **Müştəri aşağıdakı hüquqlara malikdir:**

3.7.1.1 Bu Müqavilənin icrasına təsir edəcək hər hansı halla bağlı (+99412) 5055616 nömrəsi vasitəsilə Bankın Telefon Mərkəzinə müraciət etmək və ya Bankın bu Müqavilədə qeyd olunmuş digər əlaqə vasitələrilə Banka məlumat vermək. Lakin xətlərin məşğulluğu və ya hər hansı digər texniki səbəbdən Müştəri tərəfindən bu cür məlumatların verilməməsi Bank üçün hər hansı öhdəlik yaratmır və Müştərini bu Müqavilə ilə müəyyən edilmiş öhdəliklərindən azad etmir.
3.7.2. **Müştəri aşağıdakıları öz öhdəsinə götürür:**

3.7.2.1. İnternet və Mobil Bankçılıq xidməti ilə bağlı meydana çıxacaq bütün anlaşılmazlıqlarda Bankın sənədlərinin və kompüter məlumatlarının qəti dəlil olacağını, onlara etiraz etməyəcəyini qəbul etmək;
3.7.2.2. İnternet və Mobil Bankçılıq xidməti ilə əlaqədar Bank tərəfindən hazırlanmış və ona yazılı, yaxud da şifahi şəkildə internet və/və ya digər əlaqə/informasiya kanalları ilə yenilənmiş vəziyyətdə çatdırılan/çatdırılacaq bütün məlumatlandırmalara tam şəkildə əməl etmək;
3.7.2.3. Bu Müqavilə çərçivəsində olan əməliyyat və xidmətlərlə əlaqədar Banka yazılı, şifahi, internet və/və ya elektron sistemlər vasitəsilə verdiyi məlumatların hamısının düzgün, bütöv və tam olduğunu, məlumatlar düzgün, bütöv və tam olmadığı halda, yaranacaq zərərlərə görə məsuliyyət daşıyacağını qəbul etmək;
3.7.2.4. Bu Müqavilə çərçivəsindəki xidmətlər və hesabları ilə əlaqədar olaraq, təsdiqləyici məlumatların aparılan əməliyyatlar üzrə İnternet və Mobil Bankçılıq sistemi vasitəsilə Bank tərəfindən göndərilənlərdən ibarət olacağını qəbul etmək;
3.7.2.5. Əlavə təhlükəsizlik vasitələri üçün təyin etdiyi mobil telefon nömrəsinə gələn şifrələri məxfi və təhlükəsiz şəraitdə saxlamağa, hər bir halda üçüncü şəxslərin öyrənmələrinə və/və ya istifadələrinə icazə verməyəcəyinə, mobil telefonuna gələn şifrələrin şəxsən özü tərəfindən tələb və qəbul edilməsinə, əlavə təhlükəsizlik vasitələri ilə həyata keçirilən əməliyyatlara görə məsuliyyət daşımaq;
3.7.2.6. Bankın Müştəriyə İnternet və Mobil Bankçılıq xidməti vasitəsilə etdiyi və edəcəyi bildirişlər Müştəriyə şəxsən bildirilmiş xəbərdarlıq xarakterini daşıyır. Müştəri bu bildirişlərin İnternet və Mobil Bankçılıq vasitəsilə edilməsi halında ona bildirilməmiş olduğuna dair hər cür etiraz və rədd haqlarının bu Müqavilə ilə istisna edildiyini qəbul və bəyan edir;
3.7.2.7. Müştəri, Bankın təqdim etdiyi xidmət və məhsulların, habelə bu xidmət və məhsulların Müştəriyə təqdim edilməsində istifadə olunan hər cür materialın Bankın mülkiyyəti olduğunu və Bankın icazəsi olmadan bunlardan istifadə etməyəcəyini qəbul edir, bununla bağlı öhdəliklərin icrasını öhdəsinə götürür. Müştəri Bank tərəfindən verilmiş proqramların müəlliflik hüququnun Banka aid olduğunu, bu proqramları heç bir halda çoxaldıb yaymayacağını öhdəsinə götürür. Müştəri, Ağıllı Açar, Birdəfəlik Sms və gələcəkdə Bank tərəfindən təqdim olunacaq hər cür əlavə təhlükəsizlik vasitələrinin müəlliflik və sənaye mülkiyyət hüquqlarının Banka məxsus olduğunu qəbul və bəyan edir;
3.7.2.8. Müştəri tərəfindən səlahiyyətli şəxslər dəyişdikdə, bu barədə Bankı məlumatlandırmaq, səlahiyyətlərinə xitam verdiyi şəxslərin təhlükəsizlik vasitələrinə daxil olmasının qarşısını almaq və/və ya Bankdan Ziraat Mobil Tətbiqindən və ya Mobil tətbiqdən istifadəni etibarız hesab ediləcək vəziyyətə gətirmək məsələlərində Müştəri özünün məsul olacağını qəbul edir və bununla bağlı öhdəliklərin icrasını öhdəsinə götürür.

## 3.8. Səlahiyyətli şəxslər

3.8.1. Bu Müqavilədə qeyd edilmiş Səlahiyyətli Şəxslər, Müştəri tərəfindən müəyyən edilmiş səlahiyyətlər çərçivəsində bu Müqavilədə qeyd edilmiş xidmətlərdən yararlandığı zaman, Bank tərəfindən göstərilən və göstəriləcək xidmətlərə dair hər cür müqavilə, öhdəlik sənədi və yazılı bildiriş kimi sənədləri elektron sistemdə Müştərinin adından təsdiq etmək üçün tam şəkildə səlahiyyətə sahibdir. Səlahiyyətli Şəxslərin İnternet vasitələrlə verəcəyi təsdiq Müştəri üçün də etibarlı və qüvvədə olacaqdır.
3.8.2. Bank Müştərinin Etibarnamə əsasında səlahiyyət tələb etdiyi şəxslərin bu səlahiyyətləri yerinə yetirmək hüququnun olub-olmamasını araşdırma öhdəliyi daşımır. Bu şəxslər, Bankın

Müştəriyə internet və/və ya elektron sistemlər vasitəsilə təqdim etdiyi xidmətlərdən istifadə etdikləri zaman, Müştərinin məruz qala biləcəyi hər cür maddi və mənəvi zərər və itkilərə görə Bank heç bir məsuliyyət daşımayacaqdır.

**3.9. Məlumatın açıqlanmaması**

3.9.1. Müştəri İnternet və Mobil Bankçılıq vasitəsilə göstərilən xidmətlərdən yararlanmaq üçün ona verilən Müştəri MONO-su, İstifadəçi MONO-su, Şifrə və istifadəçi məlumatlarını məxfi saxlamaq öhdəliyi daşıyır və bu məlumatlardan istifadə hüququ yalnız Müştərinin Banka Müraciət Forması və Etibarnamədə şəxsiyyətlərini bildirəcəyi şəxslərə məxsusdur.
3.9.2. Müştərinin Müraciət Forması və Etibarnamədə şəxsiyyətlərini bildirdiyi bu şəxslərin səlahiyyətləri Müştəri tərəfindən ləğv edildikdə, Müştəri səlahiyyətləri ləğv edilmiş istifadəçilərdən Şifrəni geri almalıdır.
3.9.3. Bank Müştəri tərəfindən həmin məlumatın açıqlanması nəticəsində vurulmuş ziyana görə heç bir məsuliyyət daşımır.
3.9.4. Müştəri MONO-su, İstifadəçi MONO-su, Şifrə və istifadəçinin şəxsi məlumatları və s. hər hansı bir səbəblə açıqlandığı halda Müştəri dərhal Bankı xəbərdar edir və Şifrə Bank tərəfindən ləğv edilir.
3.9.5. Müştəri İnternet və Mobil Bankçılıq xidməti ilə bağlı bütün məsələlərə aid məlumatların Bank tərəfindən Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun surətdə müvafiq dövlət orqanlarına və digər şəxslərə verilə biləcəyini qeyd-şərtsiz qəbul edir.

**3.10. İnternet və mobil bankçılıq xidmət haqqı**

3.10.1. İnternet və Mobil Bankçılıq xidmət haqqı, həmçinin əlavə təhlükəsizlik vasitələrinə dair xidmətlərə görə haqlar Bank tərəfindən müəyyən edilmiş Tariflərə və digər ödəmələrə uyğun tutulur.
3.10.2. İnternet və Mobil Bankçılıq xidməti üzrə ödəmələr hesab(lar)ın valyutasına müvafiq olaraq qəbul edilir.
3.10.3. Ödəmələrdə Bank tərəfindən müəyyən edilən valyuta məzənnələri əsas kimi götürülür.

**3.11. Məsuliyyətin məhdudlaşdırılması**

3.11.1. Müştəri onun və/və ya sistem istifadəçisinin aparacağı bütün əməliyyatlar nəticəsində ona, üçüncü şəxslərə və/və ya Banka dəyə biləcək zərərə görə məsuliyyət daşıyacağını, bütün bu məsələlərlə əlaqədar Bankın heç bir öhdəlik daşımadığını əvvəldən qəbul və bəyan edir.
3.11.2. Müştərinin öz hesabı ilə əlaqədar verdiyi səhv məlumatlar, hər hansı bir zərər və ya qarışıqlığa yol açacaq İnternet vasitələri ilə qüsurlu sorğular təqdim olunmasıyla əlaqədar yarana biləcək anlaşılmazlıqlara görə Bank məsuliyyət daşımır.
3.11.3. Müştəri sorğularına əsasən Bank tərəfindən aparılacaq hər bir debitor və kreditor qeydi Bankın qeyd və sənədlərində dərhal öz əksini tapacaqdır. Müştərinin verdiyi sorğulara dair əməliyyatların həyata keçirilmə vaxtı ilə əlaqədar uyğunsuzluqlar olduğu halda Bank qeydlərinin və əməliyyatın həyata keçirildiyi vaxtda olan faiz və dəyərlərin əsas götürüləcəyini Müştəri qəbul və bəyan edir.
3.11.4. Müştəri Bank sistemində, mobil operatorun sistemində və/və ya digər rabitə sistemlərində və internet şəbəkələrində yarana biləcək gecikmə və nasazlıq səbəbindən həyata keçirə bilmədiyi əməliyyatlar üçün və ya mobil operator və ya digər rabitə sistemlərindən irəli gələcək təhlükəsizliyin pozulması və hər cür gecikmə və nasazlıq səbəbindən yaranacaq zərərlər üçün Bankdan hər hansı bir təzminat tələb etməyəcək.

## 3.12. İnternet və mobil bankçılıq xidmətinin fəaliyyətinin dayandırılması və ləğvi

3.12.1. Bank lazım bildiyi hallarda Müştəriyə 15 (on beş) təqvim günü əvvəl yazılı, yaxud da şifahi şəkildə internet və/və ya digər əlaqə/informasiya kanalları ilə bildiriş verərək internet və/və ya elektron sistemlər vasitəsilə təqdim olunan xidmətlərin əhatəsini məhdudlaşdıra, genişləndirə, qismən və ya tamamən dayandıra bilər. Bank bu xidmətlərə dair giriş, təsdiq, ləğvetmə və s. prosedurlarla əlaqədar dəyişiklik tətbiq edə bilər. Müştəri bu dəyişiklikləri elektron sistemdə tətbiq edərək, onlara müvafiq hərəkət etməyi, əks təqdirdə və/və ya xidmətin dayandırılması səbəbilə yarana biləcək zərər və itkilərə görə Bankın heç bir məsuliyyət daşımayacağını qəbul edir.
3.12.2. Bank Müştərinin təhlükəsiz şəraitdə əməliyyat aparmaması ilə bağlı dəqiq faktlara malik olduqda (Müştərinin hesabından səlahiyyəti olmayan şəxslər tərəfindən əməliyyat aparıldığı şübhəsi, Müştərinin təhlükəsiz olmayan şəraitdə əməliyyat aparması, xarici ölkədən aparılan şübhəli əməliyyatlar, qeyri-sağlam xarakterli əməliyyatlarda, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakdan istifadə edilməsi  və s.), Müştərinin İnternet və Mobil Bankçılığını ləğv etmək və ya müvəqqəti dayandırmaq hüququnu özündə saxlayır.
3.12.3. Bank öz təşəbbüsü ilə Müştərinin İnternet və Mobil Bankçılıq xidməti və əlavə təhlükəsizlik vasitələrindən istifadə üçün təyin edilmiş mobil nömrəsinin istifadəyə bağlanması, xəttin ləğv edilməsi, üçüncü şəxsə ötürülməsi və ya Müştərinin adına qeyd olunmaması, Müştərinin bu Müqavilənin maddələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd hərəkət etdiyini göstərən hallarda bu Müqaviləni ləğv etmə hüququna malikdir.
3.12.4. Müştəri Banka 15 (on beş) təqvim günü əvvəlcədən yazılı xəbərdarlıq verərək İnternet və Mobil Bankçılıq xidmətini dayandırmaq və ya bu Müqaviləyə xitam vermək hüququna malikdir.

## 3.13. Ziraat Global Mobil Ödəmə Tətbiqi Haqqında Müddəalar

3.13.1. Ziraat Global Mobil Ödəmə Tətbiqinə (Mobil tətbiq) İnternet Bankçılığı istifadəçiləri İnternet/Mobil kanallarında istifadə etdikləri məlumatları ilə daxil ola bilərlər.
Müştəri ona verilmiş istifadəçi adı, şifrə və İnternet və Mobil Bankçılığında Müştəri tərəfindən bildirilmiş mobil telefon nömrəsinə daxil olan kod vasitəsi ilə Mobil tətbiqə giriş edə bilir. Müştəri Mobil tətbiqə bir dəfə giriş etdikdən sonra, sonrakı istifadələr zamanı təyin olunmuş limitlər çərçivəsində Mobil tətbiqə şifrə və mobil telefon nömrəsinə daxil olan koddan istifadə etməklə giriş edərək və ya etməyərək əməliyyatları icra edə bilər.
Mobil tətbiq  mobil telefona yüklənərək istifadəçi adı, şifrə və mobil telefona daxil olan koddan istifadə edilərək daxil olunduqdan sonra, sözügedən Mobil tətbiqin mobil telefondan silinərək yenidən yüklənməsinədək telefondakı Mobil tətbiqdən bir dəfə giriş edilmiş istifadəçi tərəfindən istifadə olunduğu Bank tərəfindən qəbul edilməkdədir.
Mobil tətbiq tərkibində təqdim olunan kontentlər Bank tərəfindən xidmətin keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə daim təkmilləşdirilir, kontentlərdə/ xüsusiyyətlərdə əvvəlcədən məlumat vermədən dəyişikliklər edilə bilinəcək, təqdim olunan kontent/xüsusiyyətlər çıxarıla bilinəcəkdir.
3.13.2. Müştərinin Mobil tətbiq vasitəsilə göstərilən xidmətlərdən faydalana bilməsi üçün malik olmalı olduğu distant giriş vasitəsilə ehtiyac duyulan müvafiq proqram, avadanlıq, istismar sistemləri və internet rabitəsi ilə bağlı Bank heç bir məsuliyyət daşımır.
3.13.3. Müştərinin Mobil tətbiqə qoşula bilməsi üçün istifadə etdiyi avadanlıqlardan, proqramlardan, telefon xəttlərindən və ya internet xidmətlərindən irəli gələn nasazlıqlar nəticəsində Müştəriyə aid məlumatların üçüncü şəxslərə ötürülməsi səbəbilə dəyən zərərə görə

Bankın cavabdehlik daşımayacağını Müştəri qəbul edir və bununla bağlı məsuliyyəti öz üzərinə götürür.

3.13.4. Bu Müqavilənin hər hansı bir müddəasının Müştəri tərəfindən pozulması hallarında Bankın qanunvericiliyə uyğun olaraq heç bir əsas göstərilməsinə və bildiriş göndərilməsinə ehtiyac olmadan Müştərinin Mobil tətbiqdən istifadəsinə xitam verə biləcəyini Müştəri qəbul edir və bununla bağlı öhdəliklərin icrasını öhdəsinə götürür.

## DEBET KARTIN VERİLMƏSİ VƏ İSTİFADƏSİ

1.1 Bu Müqavilənin predmeti Bank tərəfindən buraxılmış debet kartının (bundan sonra – "Kart") Müştəriyə verilməsi, Müştəri tərəfindən isə kart vasitəsi ilə mallar, iş və xidmətlər üzrə ödənişlərin yerinə yetirilməsi, valyuta mübadiləsinin aparılması, nağd pul vəsaitinin əldə edilməsi, nağdsız formada öz hesabından vəsaitin başqa hesaba köçürülməsi, habelə qanunvericiliklə qadağan olunmayan digər əməliyyatların həyata keçirilməsi barədə öhdəlikdir.

### 2. Ümumi şərtlər

2.1. Bank Müştərinin xeyrinə Müştərinin sifariş ərizəsində qeyd olunmuş müddətə və tipdə kart buraxır. Bank tərəfindən buraxılmış kart Bankın xüsusi mülkiyyətidir.

2.2. Kart vasitəsilə həyata keçirilən əməliyyatların uçotunun aparılması üçün Müştəriyə Bankda ödəniş hesabı açılır (cari hesab). Həmin hesabdan yalnız kart vasitəsi ilə əməliyyatlar aparıla bilər. Müştəri bir və ya bir neçə korporativ kart sifariş edə bilər.

2.3. Kartdan istifadə etməklə hesablaşma əməliyyatlarının aparılması üçün Bank tərəfindən Müştəridən xidmət haqqı tutulur. Ödəniş hesabının valyutasından fərqli valyutada əməliyyat aparıldıqda, müvafiq olaraq beynəlxalq kart təşkilatının, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının mübadilə məzənnələri tətbiq edilir. Əməliyyat aparılan tarixdəki mübadilə məzənnəsi əməliyyat üzrə ödəniş hesabından silinmə tarixinin mübadilə məzənnəsindən fərqli ola bilər. Bu halda məzənnə fərqinə görə yaranmış borc Müştəri tərəfindən mübahisə edilə bilməz, həmin borc Müştərinin ödəniş hesabından Bankın xeyrinə silinir və Bank tərəfindən valyuta mübadiləsi üzrə əlavə xidmət (komisyon) haqqı tutulur.

2.4. Bankın tarifləri Bankın https://www.ziraatbank.az internet ünvanında yerləşdirilmişdir.

### 3. Bankın öhdəlikləri

3.1. Bank, Müştəri tərəfindən kartın sifariş ərizəsi verildiyi gündən etibarən 3 (üç) iş günündən, kartın təcili alınmasına ehtiyac olduqda isə kartın sifariş ərizəsinin verildiyi gündən 1 (bir) iş günündən gec olmayaraq kartı və müvafiq PİN-kodu (şəxsi eyniləşdirmə nömrəsini) Müştəriyə və ya onun tərəfindən müvəkkil edilmiş şəxsə təqdim etməli, həmçinin Müştərini kartdan və PİN-koddan istifadə qaydaları ilə tanış etməlidir.

3.2. Müştərinin müraciətinə əsasən Bank Müştərinin ödəniş hesabı üzrə çıxarış və arayış verməlidir (şəxsən, poçt, elektron poçt və digər vasitələrlə). Çıxarış və arayışın verilməsindən sonrakı 15 (on beş) iş günü ərzində çıxarış və arayış üzrə Banka pretenziya daxil olmadıqda, göstərilən məlumatların düzgünlüyünün təsdiqi hesab edilir.

3.3. Kart bloklaşdırıldıqda, karta xidmət göstərilməsi dayandırıldıqda və ya kartın istifadə müddəti başa çatdıqda, Müştərinin yazılı tapşırığı ilə onun ödəniş hesabındakı pul vəsaitinin qalığı (ödəniş hesabında aparılmış əməliyyatlar üzrə hesablaşması başa çatdırılmamış (blok olunmuş) vəsaitlər xaric) Müştərinin digər hesabına köçürülməlidir.

### 4. Bankın hüquqları

4.1. Bank bu Müqavilənin rəsmiləşdirilməsi üçün zəruri olan sənədlərin təqdim edilməsini Müştəridən tələb edir. Etibarnamə əsasında fəaliyyət göstərən səlahiyyətli şəxslərin siyahısı etibarnamə ilə birlikdə bu Müqavilə imzalandığı tarixdən 7 (yeddi) iş günü ərzində Banka təqdim olunmalıdır.
4.2. Bank Müştəriyə tətbiq edilən tariflərə birtərəfli qaydada dəyişikliklər edə bilər.
4.3. Aşağıdakı hallarda Bank kartı bloklaşdıra və karta xidmət göstərilməsini dayandıra bilər:
4.3.1. Müştərinin müraciətinə əsasən;
4.3.2. Müştəri bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə;
4.3.3. kartdan istifadə qaydaları pozulduqda;
4.3.4. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhələr olduqda;
4.3.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.
4.4. Kartın itirilməsi, oğurlanması və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadəsi haqqında Müştərinin Banka müvafiq bildirişi daxil olduqda, Bank kartı bloklaşdırır və ya karta xidmət göstərilməsini dayandıraraq kartın nömrəsini yerli və beynəlxalq “Stop” vərəqəsinə (lokal, elektron, kağız) yerləşdirir.
4.5. Kart bloklaşdırıldıqda və ya karta xidmət göstərilməsi dayandırıldıqda, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyləşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu barədə Bankın müəyyən etdiyi kommunikasiya vasitələri ilə Müştəriyə məlumat verilir.
4.6. Bank kartın bərpa edilməsindən və ya onun təzələnməsindən imtina edə bilər.
4.7. Bank birtərəfli qaydada tətbiq edilən limitləri (məhdudiyyətləri) dəyişə bilər və dəyişdirilmiş limitlər Bankın www.ziraatbank.az rəsmi internet səhifəsindən əldə edilə bilər.

**5. Müştərinin öhdəlikləri**

5.1. Kart bloklaşdırıldıqda və ya karta xidmət göstərilməsi dayandırıldıqda, habelə kartın istifadə müddəti başa çatdıqda, Müştəri Bankın müvafiq xəbərdarlığından sonra 10 (on) iş günü müddətində kartı Banka qaytarmalıdır.
5.2. Müştəri kartı itirdikdə, kart oğurlandıqda və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadə edildikdə, Müştəri dərhal bu fakt barədə mümkün kommunikasiya vasitələrindən (ən azı telefon, mobil, internet) istifadə etməklə Bankı məlumatlandırmalıdır. Müştəri aşağıda göstərilən telefon və internet saytı vasitəsilə ilə “Azərikard” MMC ilə əlaqə saxlaya bilər: əlaqə tel (customer support service): (994 12) 194; internet sayt: www.azericard.com. Bank kartın itirilməsi, oğurlanması və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadə edilməsi üçün məsuliyyət daşımır və bu bənddə göstərilən məlumatlandırma ilə bağlı xəbərdarlıq “Azərikard” MMC tələbləri üzrə müəyyən edilən müddətdə qüvvəyə minir.
5.3. İtməsi və ya oğurlanması haqda məlumat verilmiş kart aşkar edildikdə, Müştəri dərhal bu barədə Banka məlumat verərək kartı Banka qaytarmalıdır.
5.4. Müştəri bank xidmətlərinin haqqını, o cümlədən kartların hazırlanması və öz ödəniş hesabı üzrə çıxarış və arayışların göndərilməsi xərclərini Bankın tariflərinə müvafiq olaraq ödəməlidir.
5.5. Müştəri kartdan istifadə edilməsi nəticəsində əldə etdiyi qəbzləri kartın müddəti bitdikdən və ya kart ləğv edildikdən sonra 1 (bir) il ərzində saxlamalıdır və mübahisəli halları nizamlamaq üçün onları Banka təqdim etməlidir. Qəbzlər təqdim edilmədiyi təqdirdə Müştəri Bank tərəfindən təqdim edilən sənədləri, qeydləri və kompüter məlumatlarını inkar olunmaz sübutlar kimi qəbul etməlidir.

## 6. Müştərinin hüquqları

6.1. Kartın istifadə müddəti başa çatdıqda, Müştərinin sifariş ərizəsi olmadan Bank tərəfindən Müştəriyə təzə (yeni) kart verilə bilər. Kart itirildikdə və ya oğurlandıqda, Müştəri onun təzəsi (yenisi) ilə əvəz olunması barədə Banka yazılı ərizə ilə müraciət edə bilər. Təzə kartın verilməsi bu Müqavilənin 3.1-ci bəndi ilə müəyyən edilmiş qaydada (kartın istifadə müddəti başa çatdıqda, Müştəri tərəfindən təzə kart üçün sifariş ərizəsi verilmir) həyata keçirilir və Müştəri təzə kartın verilməsi ilə bağlı bütün xərcləri ödəməlidir. Kartın PİN-kodu itirilibsə, kartın yenisi ilə əvəz edilməsi zəruriyyəti yaranmır və bu halda Müştəri Bankın xidmət bölmələrində pos-terminal avadanlığı vasitəsilə kartı üzrə yeni PİN-kod təyin edə bilər.
6.2. Müştəri kartın istifadəsi ilə yerinə yetirilən əməliyyatlar və aparılan hesablaşmalar üzrə Banka müraciətlər etmək və şikayətlər göndərmək hüququna malikdir.
6.3. Pul məbləğinin Müştərinin ödəniş hesabından əsassız və səhvən silindiyi barədə əsaslı şübhələr olduqda, Müştəri yazılı müraciət əsasında həmin məbləğin əvəzinin ödənilməsi üçün təhqiqat aparılmasını tələb edə bilər. Təhqiqat prosesi beynəlxalq kart təşkilatlarının qaydalarına əsasən aparılır. Pul məbləğinin səhvən silinməsi sübut olunmadıqda, Bank təhqiqat vaxtı məruz qaldığı bütün xərcləri və komisyon (xidmət) məbləğlərini Müştəridən tuta bilər.
6.4. Müştəri sms-bankinq xidmətinə qoşularaq kart üzrə apardığı bütün əməliyyatlar barədə məlumatlar alır.
6.5. Müştəri tərəfindən PİN-kodun təyin edilməsi Bankın xidmət bölmələrində Müştəri tərəfindən kartın pos-terminala daxil edilməsi yolu ilə, PİN-kodun dəyişdirilməsi isə Bankın bankomatlarında (ATM-də) tətbiq edilən PİN-kod dəyişmə xidməti vasitəsilə həyata keçirilir.

## 7. Digər şərtlər

7.1. Korporativ kart hüquqi şəxsin və fərdi sahibkarın ezamiyyə, nümayəndəlik və digər xərclərinin, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin ödənilməsində istifadə olunur.
7.2. Korporativ kart dividend, əmək haqqı, pensiya, təqaüdlərin ödənilməsi və digər sosial xarakterli ödənişlər üçün istifadə oluna bilməz.
7.3. Limitdən artıq istifadə edilən məbləğ Müştəri tərəfindən ödənilməlidir. Həmin məbləğ ödənilmədiyində, Bank Müştərinin Bankdakı hər hansı hesabındakı pul vəsaitini akseptsiz qaydada silmək hüququ əldə edir. Əgər pul vəsaiti Müştərinin hesabından digər valyutalarda silinirsə, valyuta mübadiləsi Bankın müvafiq tariflərinə əsasən həyata keçirilərək xidmət haqqı Müştərinin hesabındakı pul vəsaitindən akseptsiz qaydada silinir.
7.4. Beynəlxalq kart təşkilatları tərəfindən qəbul edilmiş "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələrdə əməliyyatların aparılmasına dair şərtlər:
Çip kart üzrə öhdəliyinin (məsuliyyətin) ötürülməsi o deməkdir ki, EMV (Europay, MasterCard və Visa) çip kart platformasına keçən ölkədə və/və ya regionda saxta və/və ya fırıldaqçılıq əməliyyatı baş verdiyi halda əməliyyat üzrə öhdəlik (məsuliyyət) qeyri-çip kart istiqamətli tərəfə (şikayətçi tərəfə) ötürüləcəkdir (keçəcəkdir).
Əlavə olaraq, əgər PIN beynəlxalq kart təşkilatları tətbiq edilən regionda və ya ölkədə üstünlük verilən və ya tələb edilən CVM-dirsə (card verification method – kartın müştəriyə aid olub-

olmamasını yoxlama vasitələri), hər hansı bir müştəri (müştəri/kart/əlavə kart sahibi) Çip/PIN əməliyyatlarını dəstəkləmək qabiliyyətinə malik olmadıqda, beynəlxalq kart təşkilatları əməliyyatlarında saxtakarlıqla nəticələnən itirilmiş, oğurlanmış və ya heç vaxt qəbul edilməmiş kartlar üçün həmin müştəri (müştəri/kart/əlavə kart sahibi) məsuliyyət daşıyacaqdır.
7.5. Bu Müqavilə üzrə təhlükəsizlik tələblərinin və digər şərtlərin pozulmasına görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.
7.6. Bank, İnternet şəbəkəsində kart ilə apardığı əməliyyatlara dair Müştərinin ödəniş hesabından hər hansı silinmələrə, habelə silinmiş vəsaitin ödənilməsinə görə heç bir məsuliyyət daşımır.
7.7. Ödəniş sistemləri üzərində nəzarət funksiyasını Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir. Ünvan və əlaqə telefonları: AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 32; əlaqə

**BANK ƏMANƏTİ**

1.1. Bu Müqaviləyə əsasən Bank Əmanətçiyə əmanət hesabı açmağı, açılmış hesaba əmanət məbləğini qəbul etməyi və əmanət məbləğini Müqavilə ilə müəyyən olunan qaydada Əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.
1.2. Əmanət Banka üçüncü şəxsin adına qoyulduğu halda həmin şəxs bu hüquqlara əsaslanan ilk tələbini Banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla Banka bildirdiyi andan əmanətçi hüququ qazanır. Müqaviləni bağlamış şəxs onun əmanət üzrə hüququndan üçüncü şəxs əmanətçi hüququndan istifadə edənədək istifadə edə bilər.

**2. Hesablaşma qaydası**
2.1. Əmanətçi hesaba vəsaiti nağd və ya nağdsız hesablaşma vasitəsilə ödəyir. Əmanətlə bağlı komissiyalar Bankın tariflərinə uyğun olaraq tutulur.
2.2. Əmanətin məbləğinə faizlər bu məbləğin Banka daxil olduğu günün ertəsi günündən məbləğin Əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır.
2.3. Əmanət üzrə faizlərin hesablanması ildə 360 (üç yüz altmış) təqvim günü, ayda isə 30 (otuz) təqvim günü götürülməklə hesablanır.
2.4. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən hallarda bank hesabı üzrə əməliyyatların dayandırılması və bank hesabındakı vəsaitlərin dondurulması həyata keçirilir.

**3. Tərəflərin hüquq və vəzifələri.**
**3.1. Bankın hüquqları:**

3.1.1. Bu Müqavilənin rəsmiləşdirilməsi üçün tələb olunan sənədləri Əmanətçidən tələb etmək;
3.1.2. Əmanətçinin Banka təqdim edilən əmanətin qanunsuz yollarla əldə edilməsi, o cümlədən pulların yuyulması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə hər hansı şəkildə əlaqəli olduğuna dair əsaslı şübhələr mövcud olduqda bu Müqaviləyə birtərəfli qaydada xitam vermək;
3.1.3. Bu Müqaviləyə qanunvericiliklə müəyyən edilmiş qaydada xitam vermək;
3.1.4. Əmanətçinin Bank qarşısında öhdəlikləri yarandıqda və ya müvafiq məhkəmə qərarı olduqda, habelə qanunvericiliklə müəyyən edilmiş digər hallarda Əmanətçinin sərəncamı olmadan onun hesabındakı pul vəsaitini silmək. Əgər pul vəsaiti Əmanətçinin xarici valyutada olan hesabından silinirsə, konvertasiya Bankın müvafiq tariflərinə əsasən həyata keçirilir və

müvafiq komissiya haqqı tutulmaqla Əmanətçinin hesabından pul vəsaiti akseptsiz qaydada silinir;
3.1.5. Qanunvericiliklə və bu Müqavilə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**3.2. Bankın vəzifələri:**

3.2.1. Bu Müqavilə ilə nəzərdə tutulan məbləği Əmanətçidən qəbul etmək;
3.2.2. Əmanət məbləğini bank kitabçası və ya digər sənədlə təsdiq etmək;
3.2.3. Hesablanan faizlərin düzgünlüyünə riayət etmək və həmin faizləri Əmanətçiyə vaxtında ödəmək;
3.2.4. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri icra etmək.

**3.3. Əmanətçinin hüquqları:**

3.3.1. Bu Müqavilədə göstərilən faizləri almaq;
3.3.2. Əmanətinin qaytarılmasını tələb etmək;
3.3.3. Əmanət üzrə sərəncam vermək üçün digər şəxsə etibarnamə vermək;
3.3.4. Əmanət üzrə faizlərin hesablanması və əmanətin qaytarılması təminatı ilə bağlı məlumat almaq;
3.3.5. Qanunvericiliklə və bu Müqavilə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**3.4. Əmanətçinin vəzifələri:**

3.4.1. Bu Müqavilədə nəzərdə tutulan müddətin başlanması anına əmanəti Banka təqdim etmək;
3.4.2. Banka təqdim edilən əmanətin üçüncü şəxslərin tələblərindən azad olmasına, qanunsuz yollarla əldə edilməməsinə yazılı şəkildə təminat vermək, o cümlədən Bankın tələbi ilə bu barədə müvafiq sənədləri təqdim etmək;
3.4.3. Bu Müqavilənin rəsmiləşdirilməsi üçün Bankın tələb etdiyi sənədləri təqdim etmək;
3.4.4. Banka təqdim edilən sənədlərdə dəyişiklik baş verdikdə, o cümlədən poçt ünvanı və digər rekvizitlərin dəyişilməsi barədə Bankı dərhal yazılı şəkildə məlumatlandırmaq;
3.4.5. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri icra etmək.

**4. Əlavə şərtlər**

4.1. Bu Müqavilədə müəyyən olunan müddətin bitdiyi sonuncu gün əmanət Əmanətçi tərəfindən geri götürülmədikdə, bu Müqavilə eyni şərtlərlə həmin tarixdən, lakin həmin günə Bankda qüvvədə olan faiz dərəcəsi tətbiq olunmaqla uzadılır.
4.2. Bu Müqavilə ləğv edildikdə Əmanətçinin əmanət hesabı bağlanılır.

**5. Tərəflərin məsuliyyəti**

5.1. Bank Əmanətçi tərəfindən qoyulan əmanətin qanunsuz yollarla əldə edilməsi və ya Əmanətçi tərəfindən məlumatın düzgün göstərilməməsinə görə məsuliyyət daşımır.

**POS-TERMINALDAN ISTIFADƏ**

**Əsas anlayışlar:**

**Kart**: Ödəniş kartları.

**VISA:** VISA İnternational Beynəlxalq Kart təşkilatı.

**Mastercard**: Mastercard Inc Beynəlxalq Kart təşkilatı.

**Avtorizasiya**: Bank tərəfindən müəyyən edilən hədd aşıldıqda Sifarişçiyə kart qəbulu əməliyyatlarının aparılmasına icazə verilməsi.

**Qəbz -** Kart vasitəsi ilə POS-terminalda aparılan ödənişin təfərruatlarını özündə əks etdirən sənəd.

**Hesablaşma məlumatı**: Sifarişçinin təqdim etdiyi qəbzlər əsasında Bank tərəfindən hazırlanan və Sifarişçi ilə hesablaşmaların aparılması üçün zəruri olan məlumat.

**Pos-terminal**: Nağdsız ödənişlərin (o cümlədən təmassız ödənişlərin) aparılması və/və ya nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq, o cümlədən lazımi proqram təminatı ilə təmin edilmiş mobil cihaz (mobil operatorların ümumistifadəli telekommunikasiya şəbəkələrində mobil (sellülar) xidmət alan (xidmət almağa yararlı olan) telefon aparatı və digər son avadanlıq).

**Kartın istifadəçisi**: Kart sahibi və ya kartdan istifadə etmək hüququna malik olan şəxs.

**Hədd:** Qabaqcadan avtorizasiya alınmadan Sifarişçinin kartla apara biləcəyi əməliyyatlar üzrə Bankın müəyyən etdiyi ümumi məbləğ.

**AZN**: Azərbaycan manatı.

**Qaytarma hesabı** - Kart vasitəsilə aparılan əməliyyatın ləğvinə dair hesab-bildiriş.

**Yararsız vəziyyət** – POS-terminalın zərbə, yanğın, suya düşmə və bu kimi digər fiziki təsirlər, həmçinin POS-terminaldan düzgün istifadə etməmə (cihazın kobud istifadəsi, proqram təminatının pozulması və s.) nəticəsində onun qeyri-işlək vəziyyətə düşməsi.

**“Chargeback” -** kartın istifadəçisi tərəfindən təqdim edilmiş etiraz ərizələrində göstərilən dələduzluq və ya səhvən aparılmış əməliyyatlar üzrə kart hesablarından silinmiş məbləğlərin geri qaytarılması.

## 1. Müqavilənin predmeti

1.1. Müqavilənin predmetini Bankın Sifarişçini kartlar vasitəsi ilə malların, işlərin və xidmətlərin alınması müqabilində ödənişləri qəbul etməsi üçün POS-terminal ilə təmin etməsi və bununla bağlı münasibətlərdən irəli gələn məsələlərin müəyyən edilməsi təşkil edir.

## 2. Tərəflərin hüquqları və vəzifələri

### 2.1. Bank aşağıdakıları öhdəsinə götürur:

2.1.1. Prosessinq təşkilatı tərəfindən hazırlanmış hesablaşma məlumatları Banka verildiyi tarixdən etibarən 1 (bir) iş günü ərzində, kartlarla aparılmış əməliyyatların məbləğini Müqavilə ilə nəzərdə tutulmuş komisyon haqqlarını Sifarişçiyə çatası məbləğdən tutduqdan sonra onun bank hesabına köçürür. Müqavilədə qeyd olunan Pos-terminaldan istifadə haqqı müəyyən edildikdə, Bank həmin məbləği Sifarişçiyə çatası məbləğdən tutduqdan sonra onun bank hesabına köçürür. Kart istifadəçisinə geri ödəmə əməliyyatı aparılan zaman Sifarişçidən tutulmuş komisyon haqqı Sifarişçinin bank hesabına köçürür.
2.1.2. Müvafiq təhvil - təslim aktına əsasən Sifarişçini kartların qəbul edilməsi üçün Pos-terminalla təmin edir. Sifarişçiyə verilən Pos-terminal Bankın mülkiyyətidir və Müqavilənin müddəti qurtardıqdan sonra Sifarişçi həmin avadanlığı təhvil-təslim aktına əsasən Banka işlək vəziyyətdə geri qaytarmalıdır.

**2.2. Bank aşağıdakı hüquqlara malikdir:**

2.2.1. Sonrakı hesablaşmalardan aşağıdakı məbləğləri tutmaq:
-hər hansı mübahisələrə və ya ixtilaflara səbəb olan qəbzlər əsasında Bank tərəfindən Sifarişçinin bank hesabına köçürülmüş məbləğləri;
- Sifarişçi tərəfindən Banka təqdim olunmuş qaytarma (geri ödəmə) hesablarının məbləğlərini;
- qanunvericiliklə nəzərdə tutulmuş digər məbləğləri.
2.2.2. Tutulacaq məbləğlər Sifarişçinin bank hesabına köçürüləcək məbləğlərdən çox olduqda, həmin fərqin Banka qaytarılmasını Sifarişçidən tələb etmək.
2.2.3. Sifarişçi qanunvericiliklə müəyyən olunan sanksiyalara məruz qaldıqda, Müqavilənin 2.1.1-ci bəndində göstərilən məbləğlərin ödənişini dayandırmaq;
2.2.4. “Chargeback” əməliyyatları üzrə ödənişlərin və digər ödənişlərin məbləğlərini Sifarişçinin Bankdakı hesabından akseptsiz qaydada silmək;
2.2.5. Müqavilə və qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

**2.3. Sifarişçi aşağıdakıları öhdəsinə götürür:**

2.3.1. Satılan mallar, görülən işlər və göstərilən xidmətlər müqabilində kartlarla qəbul edilən ödənişlərin Bank tərəfindən təmin edilən POS terminal vasitəsi ilə aparılmasını təmin etmək və kart istifadəçisinin üzərinə əlavə haqq qoymamaq;
2.3.2. Kartlarla əməliyyatları Müqavilə ilə müəyyən edilmiş qaydalara uyğun surətdə aparmaq və qəbzlərdə əks etdirilən məlumatın düzgünlüyü üçün məsuliyyət daşımaq;
2.3.3. Əməliyyatları Bankın müəyyən etdiyi valyutalar ilə aparmaq. Sifarişçi avtorizasiyanın həmin valyuta ilə daxil edilməsi üçün məsuliyyət daşıyır;
2.3.4. Qəbzlərin surətlərinin 2 (iki) il müddətində saxlanılmasını təmin etmək, Bank tələb etdikdə onları 2 (iki) iş günü ərzində təqdim etmək;
2.3.5. Kartla alınmış mallar, iş və xidmətlər geri qaytarıldıqda, Müqaviləyə uyğun kart istifadəçisinə qaytarma hesabını yazmaq;
2.3.6. Qaytarma hesablarının əsillərini əməliyyat tarixindən sonra 7 (yeddi) iş günündən gec olmayaraq Banka təqdim etmək;
2.3.7. Bankdan aldığı Pos-terminalı başqa şəxslərə verməmək və Bankın qabaqcadan razılığı olmadan həmin şəxslərin Bankdan alınmış ləvazimatlardan istifadə etməsinə imkan verməmək. Bu tələbin pozulması nəticəsində dəyən zərərin məbləğini Banka ödəmək;
2.3.8. Bankdan alınan Pos-terminaldan yalnız Müqavilənin məqsədləri üçün istifadə etmək, onların yararsız vəziyyətə gətirilməsi (sıradan çıxmasına) və ya itirilməsinə yol verməmək üçün bütün zəruri işləri görmək. Pos-terminalı yararsız vəziyyətə gətirdikdə və ya itirdikdə, yararsız vəziyyətə gətirilmə və ya itirmə halı barəsində Sifarişçi ilə Bank arasında akt tərtib edilir və həmin bu akt tərtib edilən tarixdən etibarən bir təqvim ayı ərzində onların tam dəyəri Sifarişçi tərəfindən Banka ödənilməlidir. Pos-terminal yararsız vəziyyətə gətirildikdə və ya itirildikdə yeni Pos-terminal 5 (beş) iş günü ərzində Bank tərəfindən Sifarişçinin hesabına təmin edilir;
2.3.9. Müqaviləyə xitam verildikdə, xitam vermə tarixindən etibarən 5 (beş) iş günü ərzində Pos-terminalı (adaptoru və qutusu ilə birlikdə) təhvil-təslim aktına əsasən Banka qaytarmaq. Bu tələb yerinə yetirilmədikdə, qaytarılmalı Pos-terminalın tam dəyərini Müqaviləyə xitam verildiyi tarixdən etibarən 10 (on) iş günü ərzində Banka ödəmək;

2.3.10. Müqavilənin 2.2.2-ci bəndinə uyğun olaraq Bankdan qaytarma haqqında bildiriş aldıqda, bildirişdə göstərilən məbləği 5 (beş) iş günündən gec olmayaraq Banka ödəmək;
2.3.11. Bankdan alınan reklam-məlumat vasitələrini Bankla razılaşdırılmış yerlərdə və məntəqələrdə, Bankın səlahiyyətli nümayəndəsinin iştirakı ilə yerləşdirmək. Həmin vasitələri Banka bildirmədən və onun nümayəndəsinin iştirakı olmadan ləğv etmək və başqa yerə keçirmək qadağandır;
2.3.12. Sifarişçi, aparılan geri ödəmə əməliyyatlarında qabaqcadan kart hesabından silinmiş məbləğdən (aparılmış əməliyyat məbləğindən) artıq məbləği qaytarmır. Əks təqdirdə artıq məbləğ Sifarişçidən tutulur;
2.3.13. Geri ödəmə əməliyyatının aparılmasından asılı olmayaraq qabaqcadan aparılmış əməliyyat məbləğindən komisyon haqq Sifarişçidən tutulur;
2.3.14. Sifarişçi Pos-terminal vasitəsi ilə kartlara xidmət göstərərkən Pin kod tələb edilən əməliyyatlarda kart istifadəçisinin Pin-kod yığmasını təmin etməlidir (Pin-kod şəxsən kart istifadəçisinin özü tərəfindən daxil edilməlidir). Əks təqdirdə Chargeback halları baş verərsə (kart istifadəçisi ödənişlərə etiraz edərsə), ödənişlər üzrə tam məsuliyyəti Sifarişçi daşıyacaqdır;
2.3.15. Qanunvericiliklə digər hal müəyyən edilməmişdirsə, Sifarişçi kart istifadəçisindən şəxsiyyətini təsdiq edən sənədi tələb etmək hüququna malik deyil;
2.3.16. Sifarişçi kartın dövlət mənsubiyyətindən asılı olmayaraq bütün ölkələrdə buraxılan Mastercard və Visa kartlarını ödəniş üçün qəbul etməlidir;
2.3.17. Əgər Sifarişçi Müqavilənin 2.3.16-cı bəndində qeyd olunan şərtləri pozarsa və bunun nəticəsində Beynəlxalq ödəniş sistemləri Bankı cərimə edərsə, həmin cərimə(lər) Bank tərəfindən Sifarişçidən tutulur;
2.3.18. Müqavilə ilə müəyyən edilən komisyon və digər haqları ödəmək;
2.3.19. Müqavilədən və qanunvericilikdən irəli gələn digər vəzifələrini icra etmək.

**2.4. Sifarişçi aşağıdakı hüquqlara malikdir:**

2.4.1. Pos-terminalda nasazlıq olduqda, yaxud Pos-terminal işləmədikdə, kartların ödənişə qəbul edilməsindən imtina etmək;
2.4.2. Müqavilə üzrə Bankın üzərinə götürdüyü öhdəliklərin icrasını tələb etmək;
2.4.3. Qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

**3. Komisyon haqlar.**

3.1. Komisyon haqlar Müqaviləyə uyğun olaraq müəyyən edilir.
3.2. Bank qabaqcadan yazılı məlumat verməklə komisyon haqqının məbləğini birtərəfli şəkildə dəyişdirə bilər. Komisyon haqqı çıxıldıqdan sonra Bank qalan məbləği Sifarişçinin bank hesabına köçürür.

**4. Əməliyyatların aparılması qaydaları**

4.1. Əməliyyatların aparılmasının texniki qaydaları haqqında təlimat Bank tərəfindən təqdim olunur və Sifarişçi bu qaydalara riayət etməlidir.
Əməliyyat aparmazdan əvvəl Sifarişçi müəyyən etməlidir ki, kart üzərində Bank tərəfindən qəbuluna icazə verilən kart rəmzləri (VİSA və Mastercard loqosu) vardır.
4.2. Sifarişçinin Banka təqdim etdiyi qəbzlərin surətində aşağıdakılar mütləq olmalıdır:
- Bankın adı;
- Sifarişçinin adı və VÖEN-i;
- qəbzin nömrəsi;

- Əməliyyatın tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);
- Xidmət mərkəzinin adı;
- POS-terminalın kodu;
- ödənişin məbləği və valyutası;
- kartın təhlükəsizlik tələbləri çərçivəsində icazə verilən rekvizitləri;
- Avtorizasiya kodu.

4.3. Qaytarma hesabları eyni qaydada qəbzlərdə əks etdirilir. Qaytarma hesabının bütün nüsxələrində Sifarişçiyə aid olan məlumat hissəsində asan oxunan aydın xəttlə CREDİT sözü yazılmalıdır.

4.4. Aşağıdakı hallarda qəbzin surəti etibarsız sayılır:
- Əməliyyat Müqavilənin müddəaları pozulmaqla aparıldıqda;
- Qəbzin Banka verilmiş surəti qəbzin kart istifadəçisinə verilmiş surətinə uyğun gəlmədikdə;
- Qəbzdə məlumatlar tam əks etdirilmədikdə.

4.5. Sifarişçi, Bank tərəfindən təmin edilmiş Pos-terminaldan yalnız onun tərəfindən satılan mal, iş və xidmətlər üzrə ödənişlərin həqiqi kart istifadəçilərindən qəbul edilməsi məqsədi ilə istifadə edə bilər.

4.6. Sifarişçi Bankın aşağıdakı əməliyyat valyutalarını və avtorizasiya hədlərini qəbul edir:
- Əməliyyatlar AZN ilə aparılır. Bank avtorizasiya hədlərini istənilən vaxt dəyişdirə bilər. Dəyişikliklərin qüvvəyə mindiyi tarixdən Sifarişçi onları qeyd-şərtsiz qəbul edir.

4.7. Aparılmış nağdsız əməliyyata görə ödənişin geri qaytarılması müştəri tərəfindən həmin kart vasitəsi ilə POS-terminalda icra edilir və ya Sifarişçinin Banka yazılı müraciəti əsasında Bank tərəfindən araşdırılmaqla icra edilir. Bu zaman geri qaytarılacaq ödənişin qəbzi Sifarişçi tərəfindən Banka təqdim edilməlidir.

**5. Tərəflərin məsuliyyəti**

5.1. Sifarişçi ilə kart istifadəçisi arasında mübahisə və ixtilafların Müqavilənin mövzusuna aid olmadığı bütün hallarda həmin mübahisə və ixtilaflar üçün, eləcə də kartdan istifadə edilməklə alınmış (haqqı ödənilmiş) mallar, işlər və xidmətlərlə bağlı mübahisələrə və ixtilaflara görə Bank məsuliyyət daşımır.

**6. Müqavilənin etibarlılıq müddəti**

6.1. Sifarişçi tərəfindən Bankın kartlarla işləyən müvafiq struktur bölməsinə verilmiş və Müqavilənin ayrılmaz hissəsi olan kartların qəbulunun təşkili haqqında ərizədə göstərilmiş məlumatların düzgün və dolğun olmadığı təqdirdə Müqavilə etibarsız sayılır.

6.2. Bank 3 (üç) iş günü əvvəlcədən Sifarişçiyə yazılı xəbərdarlıq etməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər. Sifarişçi Bankın qarşısında olan bütün ödəliklərini yerinə yetirdikdən sonra 30 (otuz) təqvim günü əvvəlcədən Banka yazılı xəbərdarlıq etməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər. Bu halda tərəflər düzgün aparılmamış hesablaşmalar barəsində bir-birinə pretenziyalarını Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun surətdə bildirirlər.

6.3. Müqavilənin ləğv edilməsi Sifarişçini Müqavilənin 2.3.10-cu bəndi ilə nəzərdə tutulmuş öhdəliklərinin icrasından azad etmir.

**7. YEKUN MÜDƏALAR**

7.1. Bu Müqavilə üzrə üzərinə götürdüyü öhdəliyi icra etməyən və ya lazımi qaydada icra etməyən tərəf digər tərəfə vurulan zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.

7.2. Bu Müqavilənin məqsədlərinin həyata keçirilməsi ilə bağlı tərəflər arasında yaranan bütün münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq tənzimlənir. Bu zaman tərəflər arasında yaranan münasibətlər qanunvericiliklə tənzimlənmədikdə bu sahədə təşəkkül tapan və geniş tətbiq edilən işgüzar adətlər tətbiq edilir.

7.3. Bu Müqavilənin icrası ilə əlaqədar tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılıqla həll edilir. Qarşılıqlı razılıqla həll edilməyən mübahisələr Azərbaycan Respublikasının aidiyyatı məhkəmələri vasitəsilə həll edilir.
7.4. Qanunvericilikdə müəyyən olunmuş hallar istisna olmaqla tərəflər bütün məlumatların məxfi saxlanmasına təminat verirlər.
7.5. Fors-major (daşqın, uçqun, sel, zəlzələ, yer sürüşməsi, yanğın, müharibə, silahlı iğtişaşlar, moratorium və digər hallar) hallarında tərəflər Müqavilə şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə bir-biri qarşısında heç bir maddi və digər məsuliyyət daşımırlar. Göstərilən səbəblərdən Müqavilənin icrası mümkün olmadıqda onun icrası yazılı surətdə xəbərdarlıq etdikdən sonra həmin halın mövcud olduğu müddət ərzində dayandırılır.
7.6. Bu Müqavilə və bu Müqavilə ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.
7.7. Bu Müqavilə Azərbaycan dilində və tərəflərin hər birində bir nüsxə qalmaqla eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib edilmişdir.
7.8. Bu Müqavilə bağlananadək Bank tərəfindən Müqavilə şərtləri barəsində Müştəriyə ətraflı izahat verilmişdir və Müştəri bu şərtləri oxuduğunu, ona tam aydın olduğunu və razılığını bildirir.
7.9.Tərəflərin hər hansı birinin ünvanında dəyişiklik baş verdiyi təqdirdə digər Tərəfə bu barədə 10 təqvim günü müddətində yazılı məlumat verilir.
7.10. Bu Müqavilə çərçivəsində Müştəri və Bank tərəfindən məktub, elektron poçt ünvanı (e-mail), faks, SMS və internet/online bank xidməti ilə göndərilən məlumat yazılı məlumat hesab olunur.
7.11. Bank ödəniş alətinin təhlükəsizliyinin təmin olunması, ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması, ödəyicinin kredit xətti ayrılmış ödəniş alətləri üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması məqsədilə ödəniş alətini bloklaşdırmaq hüququna malikdir.
7.12. Müştərinin Banka verdiyi əlaqə vasitələri ilə Banka göndərilən müraciətlər Müştəri tərəfindən göndərilmiş hesab edilir. Həmin əlaqə vasitələri üzrə göndərilən müraciətlərin qəbulu üzrə Bank məsuliyyət daşımır, bu şərtlə ki, Müştəri həmin ana qədər həmin əlaqə vasitələrindən gələn müraciətləri qəbul etməməsi barədə Banka məlumat vermiş olsun.
7.13. Müştəri şikayət, ərizə və təklifləri ilə Bankın baş ofisinə, yaxud xidmət göstərən struktur bölmələrinə yaxınlaşa, Bankın www.ziraatbank.az internet səhifəsində İstehlakçı Müraciətləri bölməsinə daxil olmaqla, həmçinin aşağıdakı vasitələrdən istifadə etməklə Bankın aidiyyəti struktur bölməsinə müraciət edə bilər:
info@ziraatbank.az elektron poçt ünvanı, yaxud (012) 505 56 16 və ya *9229 telefon nömrəsi.
7.14. Maliyyə xidmətləri istehlakçıları həmin xidmətləri istehlak edərkən qarşılaşdığı çətinliklər və suallarla əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Bankının +994124935058 telefon nömrəsinə və +99412966 qaynar xəttinə müraciət edə bilərlər.